**28 Fevral 2020-ci il**

# Transparency International
## Korrupsiya Qavrama İndeksi (KQİ) 2020

### SUALLAR VƏ CAVABLAR

## Korrupsiya Qavrama İndeksi (KQİ) nədir?

Transparency International təşkilatının tərtib etdiyi Korrupsiya Qavrama İndeksi (KQİ), dövlət sektorunda mövcud olan korrupsiya haqqında təsəvvürlərin dərəcəsindən asılı olaraq, dövlətlərin sıralamasını müəyyən edir. İndeks hazırlanarkən, bir sıra nüfuzlu beynəlxalq institutların korrupsiya ilə bağlı apardığı sorğulara, qiymətləndirmələrə istinad olunur. KQİ dövlət sektorunda korrupsiyanın qavrayışının qiymətləndirməsidir, bu bütövlükdə dövlətin və ya cəmiyyətin korrupsiyaya uğraması kimi qiymətləndirilməməlidir.

## İndeks necəhesablanır?

KQİ Transparency International təşkilatının 1995-ci ildən etibarən dərc etdiyi ən başlıca hesabatlardan biridir. 2013-cü ildən hesabatda xallar 100 bal (çox yaxşı), 0 bal (çox korrupsiyalaşmış) nisbətində müəyyən edilir. 2012-ci ilə qədər qiymətləndirmə 10 bal (çox yaxşı), 0 bal (çox korrupsiyalaşmış) nisbətində müəyyən edilirdi. 2017-ci il KQİ-nin hazırlanmasında ümumilikdə 13 fərqli hesabatın göstəriciləri nəzərə alınıb. Azərbaycanla bağlı isə 7 mənbənin məlumatlarından istifadə olunub.

| N | **Mənbələr (ingilscə)** |
|---|---|
| 1 | World Economic Forum Executive Opinion Survey (EOS) 2020 |
| 2 | Bertelsmann Foundation Transformation Index 2019-20 |
| 3 | Political Risk Services International Country Risk Guide 2020 |
| 4 | Economist Intelligence Unit Country Risk Ratings 2019 |
| 5 | Global Insight Country Risk Ratings 2020 |
| 6 | Freedom House Nations in Transit 2020 |
| 7 | Varieties of Democracy (VDEM) Project 2020 |

## Ölkənin topladığı bal nədir?

Xallar 100 bal (korrupsiyanın olmaması) 0 bal (çox korrupsiyalaşmış) nisbətində müəyyən edilir.

## Ölkənin tutduğu mövqe, yoxsa topladığı bal daha əsasdır?

TI indeksi məhz sırayla formalaşdırır, amma ölkələrin sıralaması sadə şəkildə dəyişə bilər çünki, hər il indeksə yeni ölkə daxil edilə və çıxa bilər ki, bu da nəticə etibarı ilə sıralamaya təsir göstərir. Odur ki, ölkədə korrupsiyanın vəziyyətini öyrənmək və ya illər üzrə müqayisə apara bilmək üçün xallar daha vacib əhəmiyyət kəsb edir.

## KQİ nə üçün yalnız təsəvvürlərə əsaslanır?

Korrupsiya, qeyri-qanuni fəaliyyət olduğundan onun aşkara çıxarılması, yalnız hansısa qalmaqal, xüsusi araşdırmalar və aparılan istintaq fəaliyyəti nəticəsində mümkün olur. Mövcud materiallar, məsələn, cinayət işləri və ya məhkəmə qərarlarının miqdarı əsasında müxtəlif ölkələr üzrə

korrupsiya səviyyəsinin müqayisəli təhlilini aparmaq çox çətin, hətta bəzi hallarda mümkünsüzdür. Odur ki, təsəvvürlərə əsaslanma bu mənada ən müvafiq üsuldur.

## Tİ-nin tərtib etdiyi KQİ-də «korrupsiya» anlayışı necə müəyyən olunur?

Tİ təşkilatı öz diqqətini dövlət sektorunda mövcud olan korrupsiyaya cəmləşdirir və korrupsiyanı şəxsi mənafe məqsədi ilə vəzifədən sui-istifadə kimi müəyyən edir.

## KQİ-ni kim tərtib edir?

KQİ Transparency İnternational təşkilatının Berlində yerləşən katibliyi tərəfindən hazırlanır. TI verilənləri toplayıb, ekspertlərlə metodologiya üzrə dəqiqləşdirmələr aparıb və indeksi tərtib edib.

## KQİ-nə neçə ölkə daxil edilib?

KQİ-nə 2019-ci ildə 180  ölkə daxil edilmişdir. Ölkənin KQİ-də nəzərə alınması üçün, ölkə ilə bağlı son iki ilin qiymətləndirməsini həyata keçirən ən azı üç mənbənin olması vacibdir. Əgər hansısa ölkə ilə bağlı bundan az mənbə mövcuddursa, o zaman ölkə İndeksə daxil edilmir.

**Region ölkələrinin KQİ-də göstəriciləri necədir?**

| Korrupsiyanı Qavrama İndeksi 2020: Şərqi Avropa və Cənubi Asiya regionu ölkələri | | |
|---|---|---|
| **KQİ 2019** | **Qlobal sıralamada yeri** | **Bal** |
| Gürcüstan | **56** | 45 |
| Belarus | **47** | 63 |
| Monteneqro | **45** | 67 |
| Türkiyə | **40** | 86 |
| Qazaxıstan | **38** | 94 |
| Serbiya | **38** | 94 |
| Albaniya | **36** | 104 |
| Kosovo | **36** | 104 |
| Bosniya və Herseqovina | **35** | 111 |
| Şimalı Makedoniya Makedoniya | **35** | 111 |
| Moldova | **34** | 115 |
| Ukrayna | **33** | 117 |
| Qırğızstan | **31** | 124 |
| Azərbaycan | **30** | 129 |
| Rusiya | **30** | 129 |
| Özbəkistan | **26** | 146 |
| Tacikistan | **25** | 149 |
| Türkmənistan | **19** | 165 |

## Azərbaycanın, ötən illərdə Korrupsiya Qavrama İndeksində tutduğu yer və topladığı ballar

| İl | Ölkələr arasında tutduğu yer | İndeksdə yer alan ölkələrin sayı | Topladığı bal 0-dan (çox zəif) 10-a dək (çox yaxşı) |
|---|---|---|---|
| 2000 | 87 | 90 | 1.5 |
| 2001 | 84 | 91 | 2.0 |
| 2002 | 95 | 102 | 2.0 |
| 2003 | 124 | 133 | 1.8 |
| 2004 | 140 | 146 | 1.9 |
| 2005 | 137 | 159 | 2.2 |
| 2006 | 130 | 163 | 2.4 |
| 2007 | 148 | 179 | 2.1 |
| 2008 | 159 | 180 | 1.9 |
| 2009 | 143 | 180 | 2.3 |
| 2010 | 134 | 178 | 2.4 |
| 2011 | 143 | 183 | 2.4 |
| 2012-ci ildən etibarən İndeks yeni metodologiya əsasında hazırlanır. | | | Topladığı bal 0-dan (çox zəif) 100-a dək (çox yaxşı) |
| 2012 | 139 | 176 | 27 |
| 2013 | 127 | 177 | 28 |
| 2014 | 126 | 175 | 29 |
| 2015 | 119 | 168 | 29 |
| 2016 | 123 | 176 | 30 |
| 2017 | 122 | 180 | 31 |
| 2018 | 25 | 152 | 180 |
| 2019 | 30 | 126 | 180 |
| 2020 | 30 | 129 | 180 |